bakertilly

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarına və Rəhbərliyinə:

***Rəy***

Biz "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin ("Cəmiyyət" ) 31 dekabr 2023-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

*Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti*

Bizim məqsədimiz audit edilmiş maliyyə hesabatlarında bir tam kimi saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Saxtakarlıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Baker Tilly Azerbaijan

15 may 2025-ci il
Bakı, Azərbaycan Respublikası

## "TƏMİZ ŞƏHƏR" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2023-CÜ İL TARİXİNƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak və avadanlıqlar | 7 | 15,559,740 | 8,730,478 |
| Qeyri-maddi aktivlər | 8 | 56,328 | 52,131 |
| Əmlak və avadanlıqlar üzrə avans ödənişləri | 9 | 270,845 | 1,212,791 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **15,886,913** | **9,995,400** |
| **Cari aktivlər** | | | |
| Mal-material ehtiyatları | 10 | 1,186,807 | 1,524,068 |
| Avans ödənişləri | 11 | 1,306,383 | 287,915 |
| Vergilər üzrə debitor borcları | 12 | - | 12,619,633 |
| Debitor borcları | 13 | 867,916 | 2,328,458 |
| Banklarda yerləşdirilmiş depozitlər | 14, 25 | 17,400,000 | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 15, 25 | 13,449,052 | 34,659,551 |
| Digər cari aktivlər | 16 | 3,536,612 | 3,944,498 |
| **Cəmi cari aktivlər** | | **37,746,770** | **55,364,123** |
| **CƏMİ AKTİVLƏR** | | **53,633,683** | **65,359,523** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Ətraf mühitin qorunması ilə bağlı öhdəliklər üçün ehtiyatlar | 17 | 3,319,014 | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **3,319,014** | **-** |
| **Cari öhdəliklər:** | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 18 | 863,596 | 1,712,956 |
| Vergilər üzrə ödəniləcək vəsaitlər | 12 | 353,906 | - |
| **Cəmi cari öhdəliklər** | | **1,217,502** | **1,712,956** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **4,536,516** | **1,712,956** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | 19 | 9,149,672 | 9,149,672 |
| Digər kapital | 20 | 223,708,498 | 218,326,156 |
| Digər investisiyalar | 21 | 58,091,166 | 58,091,166 |
| Yığılmış zərərlər | | (241,852,169) | (221,920,427) |
| **CƏMİ KAPİTAL** | | **49,097,167** | **63,646,567** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **53,633,683** | **65,359,523** |

**Rəhbərliyin adından:**

**Etibar Abbasov**
**İdarə Heyətinin sədri**

15 may 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Həyat Zeynalova**
**Maliyyə və İqtisadiyyat şöbəsinin müdiri-Baş mühasib**

15 may 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-47-ci səhifələrdə verilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# “TƏMİZ ŞƏHƏR” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Gəlirlər | 22 | 33,398,550 | 28,549,164 |
| **Əməliyyat xərcləri:** | | | |
| Mənfəət vergisindən başqa digər vergi xərcləri | 23 | (15,061,883) | (1,444,666) |
| Əmək haqqı və onunla bağlı xərclər | | (11,268,698) | (9,558,213) |
| Elektrik enerjisi maya dəyəri | | (10,360,258) | (9,423,341) |
| Ekoloji xərcləri | 17 | (3,650,811) | (299,420) |
| Sosial təminat xərcləri | | (2,364,779) | (1,994,356) |
| Material xərcləri | 24 | (1,631,669) | (418,322) |
| Köhnəlmə və amortizasiya xərcləri | 7, 8 | (1,488,431) | (1,534,473) |
| İstismar və təmir xərcləri | | (1,229,528) | (1,278,757) |
| Peşəkar xidmətlər | | (1,097,528) | (343,954) |
| Kommunal xərclər | | (922,956) | (586,154) |
| İcarə xərcləri | | (458,649) | (479,956) |
| Sığorta xərcləri | | (324,311) | (159,431) |
| Ezamiyyə xərcləri | | (72,108) | (74,897) |
| Bank komissiyaları | | (57,087) | (81,018) |
| Rabitə xərcləri | | (30,669) | (25,597) |
| Digər xərclər | | (5,033) | (84,350) |
| **Cəmi əməliyyat xərcləri** | | **(50,024,398)** | **(27,786,905)** |
| Əmlak və avadanlıqları dəyərsizləşməsi üzrə zərər | 7 | (1,231,908) | (3,382,963) |
| Debitor borcları üzrə ehtimal olunan kredit zərərləri | 13 | (2,579,953) | (2,117,485) |
| Avans ödənişləri üzrə dəyərsizləşmə zərərinin geri qaytarılması | 11 | 13,045 | 5,572 |
| Məzənnə fərqləri üzrə zərər, xalis | | (4,922) | (55,703) |
| Köhnəlmiş və zədələnmiş mal-material ehtiyatları üzrə zərərin geri qaytarılması/(zərər) | | 62,844 | (31,653) |
| Maliyyə gəliri | 14, 25 | 435,000 | - |
| **İl üzrə xalis zərər** | | **(19,931,742)** | **(4,819,973)** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU ZƏRƏR** | | **(19,931,742)** | **(4,819,973)** |

**Rəhbərliyin adından:**

**Etibar Abbasov**
**İdarə Heyətinin sədri**

15 may 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Həyat Zeynalova**
**Maliyyə və İqtisadiyyat şöbəsinin müdiri-Baş mühasib**

15 may 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-47-ci səhifələrdə verilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "TƏMİZ ŞƏHƏR" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Digər kapital | Digər investisiyalar | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2022-ci il** | **9,149,672** | **207,340,597** | **58,091,166** | **(217,100,454)** | **57,480,981** |
| Dövlət büdcəsindən köçürmələr (20 saylı Qeyd) | - | 10,985,559 | - | - | 10,985,559 |
| İl üzrə cəmi məcmu zərər | - | - | - | (4,819,973) | (4,819,973) |
| **31 dekabr 2022-ci il** | **9,149,672** | **218,326,156** | **58,091,166** | **(221,920,427)** | **63,646,567** |
| Dövlət büdcəsindən köçürmələr (20 saylı Qeyd) | - | 5,382,342 | - | - | 5,382,342 |
| İl üzrə cəmi məcmu zərər | - | - | - | (19,931,742) | (19,931,742) |
| **31 dekabr 2023-cü il** | **9,149,672** | **223,708,498** | **58,091,166** | **(241,852,169)** | **49,097,167** |

**Rəhbərliyin adından:**

**Etibar Abbasov**
**İdarə Heyətinin sədri**

15 may 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Həyat Zeynalova**
**Maliyyə və İqtisadiyyat şöbəsinin müdiri-Baş mühasib**

15 may 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-47-ci səhifələrdə verilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.